# MasterCem® LS 2150

## Sementin möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq məqsədilə hazırlanmış xloridsiz sement qatqısı.

### MATERİALIN TƏQDİMATI

**MasterCem® LS 2150** – sementin iş qabiliyyətini artırmaq məqsədilə hazırlanmış maye formasında olan, istifadəyə hazır sement qatqısıdır. **MasterCem® LS 2150** özünün kimyəvi komponentlərinin fəaliyyəti sayəsində spesifik sement xüsusiyyətlərini yaxşılaşdırır. Bu komponentlər klinker parametrlərinin dəyişdirilməsində və onların hidravlik göstəricilərinin təkmilləşdirilməsində iştirak edirlər.
Qatqısız vəziyyətə görə 28 gündə yekun möhkəmliyin artımı 10-25% arasında olmuşdur. Bununla yanaşı, məhsulun iş qabiliyyəti üyütmə avadanlığının xüsusiyyətlərindən, iş prosesi şəraitindən, xammalın xüsusiyyətlərindən və sementin növündən asılıdır. Sement qatqısından ən yaxşı faydanı əldə etmək üçün üyütmə və ayırma prosesləri parametrlərinin uyğunlaşdırılması zəruri ola bilər.

### STANDARTLAR

**MasterCem® LS 2150**, Avropa sement standartının (EN 197.1) tələblərinə cavab verir.

### TƏTBİQ SAHƏLƏRİ

**MasterCem® LS 2150**, aşağıda qeyd olunmuş qurğulardakı sement üyütmə prosesində tətbiq olunmaq üçün hazırlanır:

- Kürə şəkilli dəyirmanlarda (qapalı və açıq dövrəli);
- Dik dəyirmanlarda;
- Digər sement üyütmə sistemlərində.

### ÜSTÜNLÜKLƏRİ

**MasterCem® LS 2150**, sement istehsalçıları üçün aşağıdakı üstünlükləri təklif edir:

- **Xərclərin azalması:** qurğunun daha aşağı üyütmə enerjisi (kVts/t) optimallaşdırılması sayəsində.
- Daşınma xətti içərisindəki sementin axış yönünü müəyyənləşdirir.
- Sement xüsusiyyətlərini saxlamaqla eyni sement narınlığında tipik üyütmə effektivliyinin 6%-15% artımı.

### TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| Rəngi | Qəhvəyi |
| Sıxlığı | 1,088-1,121 kq/litr |
| pH | 9.0-11.0 |

*Qeyd olunmuş gostəricilər +20° C və 50% nisbi rütubət muhitində qəbul olunmuşdur.*

### SƏRFİYYAT

**MasterCem® LS 2150** doza ilə ölçülə və ya birbaşa dəyirmana vurula bilər. Tövsiyə olunan doza nisbəti, 1 ton sement üçün 300 və 750 qram aralığındadır (kütlənin 0.03 %-0.075%-i). Xüsusi hallarda, digər doza nisbətləri tələb oluna bilər. Optimal doza zavod sınaqlarında müəyyən olunmalıdır.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP

# MasterCem® LS 2150

## Sementin möhkəmliyini artırmaq, qurğunun üyütmə enerjisini azaltmaq məqsədilə hazırlanmış xloridsiz sement qatqısı.

Daha ətraflı məlumat almaq üçün **Master Builders Solutions Azerbaijan** şirkətinin texniki xidmətinə müraciət olunmalıdır.

Məhsulun maksimum performansını əldə etmək üçün, tənzimlənən bir axış nisbəti və müvafiq doza diapazonu kalibrasiya edilmiş dozlajlama avadanlığı məsləhətdir.

### UYĞUNLAŞMA

**MasterCem® LS 2150**, bütün sement növləri ilə uyğunlaşır.

### QABLAŞDIRMA

1000 kq-lıq böyük çən.
Tökmə.

### SAXLAMA

**MasterCem® LS 2150** məhsulunun 5°C-dən yüksək temperaturlarda saxlanması tövsiyə olunur. Borular istiliyə qarşı izolyasiya olun-malıdır. İstehsalçının təlimatlarına əsasən əgər məhsul açıq olmayan konteynerlərdə saxlanar-sa, bu halda saxlama müddəti minimum 12 aydır.

---

**Məsuliyyət**

Bu texniki sənəddə qeyd olunan məlumatlar, elmi və praktiki biliklərimizə əsaslanmaqdadır.
**“Master Builders Solutions Azerbaijan” MMC** yalnız məhsulun keyfiyyətinə görə məsuliyyət daşıyır.
Məhsulun harada və hansı şəraitdə istifadə olunması ilə bağlı yazılı məsləhətlər istisna olmaqla və ya səhv istismar səbəbindən yarana biləcək nəticələrə görə **“Master Builders Solutions Azerbaijan” MMC** məsuliyyət daşımır.
Hazırkı texniki sənəd başqa yeni sənədin dərc olunduğu vaxta qədər etibarlıdır. 01.11.2020

**“Master Builders Solutions Azerbaijan” MMC**

**Fabrik** : AZ 5022, Sumqayıt şəhəri, H.Z.Tağıyev qəsəbəsi, (Bakı-Quba magistralı)
Tel : (+99 418) 653 10 30
**Satış ofisi** : AZ 1025, Bakı şəhəri, Xocalı pr. 55, Ağa iş mərkəzi, 12-ci mərtəbə
Tel : (+99 412) 585 10 30
**Email** : caspian@mail.mbcc-group.com

www.master-builders-solutions.com/az-az

A brand of MBCC GROUP